# "Simurq Liseyi" Təhsil Kompleksi MMC

# Tibb Siyasəti

**Siyasət Bəyyanaməsi**

"Simurq Liseyi" Təhsil Kompleksi MMC (bundan sonra "Təhsil Kompleksi") sağlamlıq problemi olan uşaqlara məktəbdə digər uşaqlarla bərabər imkanları, o cümlədən dərsdənkənar fəaliyyətləri təmin etməyə çalışır. Təhsil Kompleksi sağlamlıq problemi olan uşaqda ola biləcək məhdudiyyətləri, nəticələri aşkar edir və eyni zamanda onlar üçün təhlükəsiz mühit təmin etməyi hədəfləyir.

**Məqsəd və Əhatə dairəsi**

Təhsil Kompleksinin bütün şagirdlər üçün məqsədi aşağıdakı kimidir:

- Şagirdlərin təhlükəsizliyini,
- Sağlamlığını,
- Dərslərdə iştirakını təmin etmək,

Təhsil Kompleksi başa düşür ki, düzgün tədbir görülməzsə, bəzi sağlamlıqla bağlı nüanslar həyat üçün ciddi və potensial təhlükə yarada bilər. Təhsil Kompleksində tam ixtisaslı həkim və tibb bacısından ibarət tibb heyəti fəaliyyət göstərir ki, sağlamlıqla bağlı hər hansı nöqsan aşkarlanarsa və ya ehtiyac yarandığı təqdirdə şagirdlərə tibbi yardım göstərsin, dəstək və məsləhət versin.

**Təhsil Kompleksinin öhdəlikləri:**

- Təhlükəsiz şərait və mühit təmin etmək,
- Xüsusi təlim keçmiş kadrlara malik olmaq,
- Tələb olunduqda ilk tibbi yardım və təcili tibbi yardım göstərmək,
- Şagirdin səhhətinin pisləşməsi barədə valideynə/onun qanuni nümayəndəsinə məlumat vermək.

| | | | |
|---|---|---|---|
| SİMURQ LİSEYİ BY LANDAU | Sənədin №: LEG-SL-PY/002 | Tarix: 10.02.2026 | Təftiş №00/Təftiş tarixi:- |
| | Document №: LEG-SL-PY/002 | Date: 10.02.2026 | Revision № Date : - |

Valideyn və ya onun qanuni nümayəndəsinin öhdəlikləri:

- şagirdin tibbi vəziyyəti/ehtiyacları ilə bağlı müvafiq məlumatları təqdim etmək,
- Tələb olunduqda təyin edilmiş dərman və tibbi ləvazimatları təmin etmək,
- Şagirdi öz cədvəlinə uyğun vaxtda peyvənd etdirmək,
- Qohumların cari əlaqə məlumatlarını təmin etmək,
- Tibbi şəraitdə, müalicələrdə və dərmanlarda hər hansı dəyişikliklər olarsa, bu barədə Təhsil Kompleksini məlumatlandırmaq,
- Təhsil Kompleksinin daxili nizam-intizam qaydalarına, daxili siyasətinə riayət etmək,
- Planlaşdırılmış tibbi ehtiyaclar barədə Təhsil Kompleksinə məlumat vermək.

Əgər şagirdin Təhsil Kompleksində halı pisləşərsə, o, dərhal müvafiq tibb müəssisəsinə çatdırılır. Bu barədə valideynə məlumat verilir. Ağrıkəsici və ya hər hansı dərman ehtiyacı yaranarsa, valideynin razılığı əsasında təmin olunur.

Şagirdlərin sağlam mühitdə böyüməsi cəmiyyətin inkişafına verilən əsas töhfədir. “Simurq Liseyi” Təhsil Kompleksi MMC olaraq biz sözügedən sağlam mühiti, şəraiti şagirdlər üçün yaratmağı əsas öhdəliyimiz hesab edirik.

**Monitorinq**

Təhsil Kompleksi səhiyyəyə dəstək sisteminin davamlı monitorinqini və təkmilləşdirilməsini öz üzərinə götürür. Bu siyasətə uyğunluğu təmin etmək üçün mütəmadi qiymətləndirmələr və təhlillər aparılacaq. Hadisələr haqqında hesabatlar, valideynlərdən rəylər və ümumi sağlamlıq və təhlükəsizlik protokollarının qiymətləndirilməsi Təhsil Kompleksinin sağlam mühit yaratmaq üçün öz məsuliyyətini yerinə yetirməsinə zəmanət verərək sistemin təkmilləşdirilməsinə kömək edəcək.

**“Simurq Liseyi” Təhsil Kompleksi MMC-nin Baş İcraçı Direktoru**

**Tural Abasquliyev**

**İmza**

AZƏRBAYCAN RESPUBLİKASI «SİMURQ LİSEYİ TƏHSİL KOMPLEKSİ» Məhdud Məsuliyyətli Cəmiyyəti AZERBAIJAN REPUBLIC